# Bələdiyyə seçkilərinə şəffaf nəzarət

## MSK Katibliyinin İnformasiya Mərkəzi seçkilərin gedişi barədə ictimaiyyəti operativ məlumatlandırdı

Dünən ölkəmizdə bələdiyyə seçkiləri keçirildi. Bundan əvvəlki seçkilərdən uğurla çıxan Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin İnformasiya Mərkəzinin qarşısında yenə növbəti məsuliyyətli proses - bələdiyyə seçkiləri dayanırdı. Seçkilərdə tətbiq olunan yeniliklər və digər məsələlər barədə məlumat öyrənmək üçün biz də bu mərkəzdə olduq.






Mərkəzi Seçki Komissiyasına yenicə çatmışdıq ki, MSK sədri Məzahir Pənahovun Katibliyin İnformasiya Mərkəzində mətbuat konfransı başladı. Bələdiyyə seçkilərinin 118 dairəni və 5049 məntəqəni əhatə etdiyini söyləyən MSK sədri dedi ki, səsvermədə iştirak edəcək seçicilərin sayı 4 milyon 972 min 356 nəfərdir. Seçkilərlə əlaqədar siyahılar dəqiqləşdirilib və məntəqələrdən asılıb.

Məzahir Pənahov seçkiləri izləmək üçün məntəqələrdə xüsusi kresloların qoyulduğunu diqqətə çatdırdı. Həmin kreslolar elə qoyulub ki, bütün məntəqəni müşahidə etmək mümkün olsun. Ümumilikdə müşahidəçilərin fəaliyyəti üçün həmişə olduğu kimi bu dəfə də yüksək şərait yaradılıb.

MSK sədri əlavə edib ki, artıq səsverməyə başlanıb və istənilən şəxs Mərkəzi Seçki Komissiyasının saytına daxil olmaqla onlayn şəkildə veb-kameralar vasitəsilə seçki prosesini izləyə bilər.

Seçici fəallığı ilə bağlı ictimaiyyətə gün ərzində 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da məlumat veriləcəyi açıqlandı.

İnformasiya Mərkəzinin konfrans zalında quraşdırılan monitor Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminə qoşulmaqla səsvermənin gedişi və nəticələri haqqında məlumatları vaxtaşırı çatdırırdı.

Mərkəzdə seçki prosesini izləmək üçün jurnalistlər üçün də hər cür şəraitin yaradıldığının şahidi olduq. Eyni anda 50-dan çox jurnalist seçkilərin nəticələrini, eləcə də dairə, məntəqə seçki komissiyalarının işi, seçici sayı və s. barədə istənilən məlumatı onlayn şəkildə öyrənə bilirdilər. Bunun üçün informasiya zalında internetə çıxışı olan xüsusi kompüterlər və böyük ölçülü monitor quraşdırılmışdı. Seçkinin nəticələri və digər zəruri məlumatlar anbaan həmin monitorda onlayn şəkildə əks etdirilirdi.

Seçici fəallığı ilə bağlı məlumatı isə mətbuata və ictimaiyyətə Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov çatdırırdı. F.Orucov gün ərzində 5 dəfə seçici fəallığı barədə məlumatları açıqladı.

İlk olaraq seçici fəallığı barədə məlumatlar seçki dairələri tərəfindən onlayn rejimdə sistemə daxil edilirdi. Hesabat saatı başa çatdığı andan saniyələr ərzində məlumatlar tərtib olunaraq hesabat saatına uyğun olaraq ictimaiyyətə ötürülürdü. O cümlədən seçkilər başa çatdıqdan və protokolların ilkin variantları təsdiq olunduqdan sonra məlumatlar elektron formada sistemə daxil edilir və sistem vasitəsilə ümumiləşdirilərək ilkin nəticələr ictimaiyyətə çatdırılırdı.

Bundan başqa, ölkə üzrə 1000 seçki məntəqəsində təchiz olunan veb-kameralar vasitəsilə hər bir kəs MSK-nın, İnformasiya Mərkəzinin və "Elektron-hökumət" portalının internet saytlarına daxil olmaqla istədikləri seçki məntəqəsində seçkiləri canlı şəkildə izləyə bilirdi. Hər üç sayta elektron xəritələr də əlavə olunmuşdu. Səs verənlər elektron xəritə vasitəsilə seçki dairə və məntəqələrinin yerini, ünvanını müəyyənləşdirə, hətta oraya necə getmək marşrutunu, məsafəni öyrənə bilirdilər.

Eyni zamanda mobil qurğular vasitəsilə də hər üç saytda olan informasiyaları əldə etmək və elektron xidmətlərdən istifadə etmək olurdu. Bu da imkan verirdi ki, seçici istənilən nöqtədən MSK-nın müvafiq məlumatları ilə tanış olsun və ya öz məlumatlarını çatdıra bilsin.

Günün sonunda isə ən son məlumatı MSK Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov açıqladı.

Bir sözlə, Azərbaycanda növbəti bələdiyyə seçkiləri də azad, demokratik və şəffaf şəraitdə keçirildi. Bunu MSK Katibliyinin İnformasiya Mərkəzində apardığımız müşahidələr bir daha təsdiqlədi.

***Rəşad BAXŞƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV(foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 24 dekabr.- S.15.